# MUSİQİ

DƏRSLİK

# 4





**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

*NƏRGİZ RƏCƏBOVA*
*ŞƏHLA QULİYEVA*
*ZEMFİRA ƏLİYEVA*

*Ümumi təhsil müəssisələrinin* **4**-*cü sinifləri üçün*

# MUSİQİ

*fənni üzrə* **dərslik**

© "Şərq-Qərb" Açıq Səhmdar Cəmiyyəti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ - QƏRB

# MÜNDƏRİCAT


## 1 Xalq musiqisi və professional musiqi

1. "Vətənimin seyrinə çağırıram elləri" ........ 8
2. Bəstəkarların əsərlərində xalq musiqisi ........ 10
3. Musiqili körpülər ........ 12

## 2 Musiqi kollektivləri

4. İnstrumental ansambllar ........ 16
5. Rəqs musiqisi ........ 18
6. Vokal kollektivləri ........ 20

## 3 Musiqi əsərlərinin melodiyaları

7. Mahnının melodiyası və mətni ........ 24
8. Melodiyada intervallar ........ 27
9. Musiqi ifadə vasitələri ........ 30

## 4 İkisəsli musiqi

10. Musiqidə əks-səda ........ 34
11. Ritmik ikisəslilik ........ 36
12. Kanon ........ 38
13. Səsaltı sədalar ........ 40

Krosvord ........ 42

## 5 Musiqi və incəsənətin başqa növləri

14. Musiqi və ədəbiyyat ........ 44
15. Musiqili ekran ........ 47
16. Musiqili tamaşa ........ 50
17. Daşları canlandıran sənət və musiqi ........ 52
18. Novruz əyləncələri ........ 54

## 6 Musiqili şəkillər

19. Musiqidə portret ........ 58
20. Musiqili natürmort ........ 60
21. Musiqidə təbiət lövhələri ........ 62
22. Sərgidə ........ 65

## 7 Konsert zalında

23. "Canım mənim, məmləkətim!" ........ 68
24. Afişa ........ 70
25. Konsertə hazırlıq ........ 72
26. Bayram konserti ........ 74

Musiqili viktorina ........ 76
Öyrəndiklərimiz ........ 78
Diplom ........ 80



Ney



Əziz dostlar!
Artıq dördüncü sinif şagirdisiniz və sizinlə yenidən görüşməyə çox şadıq! Siz bu dərslik vasitəsilə musiqi aləminə səyahət edəcəksiniz!

Saz



**Dərsin əsas sualını mən verəcəyəm. Cavabı tapşırıqları yerinə yetirməklə tapacaqsınız.**

**Mənim sualıma cavab verməklə siz dərsdə nə öyrəndiyinizi biləcəksiniz.**

**Fəaliyyətlərin şərti işarələri:**



Oxuma



Dinləmə



Lüğət



Tapşırıq



Rəqsetmə



Özünü yoxlama



**Dərslikdəki QR kodlara müraciət edərək mövzu ilə əlaqədar daha çox maraqlı məlumat əldə edə bilərsiniz.**

### Musiqi əsərinin dinləmə qaydaları:

- Əvvəldən axıra qədər diqqətlə dinləyin.
- Dinləyərkən sakitliyə riayət edin.



### Mahnının ifa qaydaları:

- Qamətinizi düz saxlayın.
- Nəfəsi burunla alın, ağızla yavaş-yavaş verin.
- İfa zamanı sözləri düzgün tələffüz edin.
- İntonasiyaya diqqət yetirin.
- Mahnını ifadəli oxuyun.



### Xorla oxu qaydaları:

- İfa zamanı müəllimin göstərişlərinə diqqət yetirin.
- Bir mahnını eyni anda oxumağa başlayın və birgə bitirin.
- İfa zamanı başqalarından geri qalmayın və tələsməyin.



### Mahnı haqqında kiçik təqdimatın tərtibedilmə qaydaları:

- Mahnı və müəlliflərin adlarını qeyd edin.
- Mahnının xarakter və məzmunu haqqında fikirlərinizi yazın.
- Mahnıya aid atalar sözləri, şəkillər və s. əlavə edin.

# XALQ MUSİQİSİ VƏ PROFESSİONAL MUSİQİ

1. “Vətənimin seyrinə çağırıram elləri”
2. Bəstəkarların əsərlərində xalq musiqisi
3. Musiqili körpülər




Musiqi incəsənətin bir növüdür. O, insanın təəssüratlarını, hiss və fikirlərini müxtəlif melodiyalarda ifadə edir. Musiqi aləmində bəzi əsərləri xalq musiqisinə, bəzilərini isə professional musiqiyə aid edirlər.

DƏRS 1

# "VƏTƏNİMİN SEYRİNƏ ÇAĞIRIRAM ELLƏRİ"

**Azərbaycan Respublikasının Dövlət Himni**
*Musiqisi Üzeyir Hacıbəylinin, sözləri Əhməd Cavadındır.*

**Vətən mövzusunu xalq musiqisi və professional musiqidə necə ifadə etmək olar?**





Əksər xalqların milli musiqi mədəniyyəti xalq musiqisi və professional musiqidən ibarətdir.

Xalq musiqisi hər bir xalqın özünəməxsus musiqisidir. Qədimdə musiqinin not yazısı yox idi. Ona görə də xalq musiqisinin yaradıcıları məlum deyil. Müəllifi xalq olan bu musiqi nümunələri nəsildən nəslə şifahi şəkildə ötürülərək bizə gəlib çatmışdır.

Professional musiqi isə bəstəkarlar tərəfindən yaranır. Onun müəllifi məlum olur. Professional musiqi əsərləri xalq musiqisinə nisbətən daha müasirdir. Bəstəkar musiqi sahəsində xüsusi təhsil alan musiqiçidir.

Azərbaycanı zəngin və rəngarəng musiqisinə görə nəğməli diyar adlandırmaq olar. Azərbaycan xalq musiqisi və professional musiqisində Vətənimizin tərənnümü xüsusi yer tutur. Belə musiqi nümunələrinə Azərbaycan Respublikasının Dövlət Himni, "Azərbaycana gəlsin" mahnısı və "Azərbaycan" xalq rəqsi aiddir.



**“Azərbaycana gəlsin”**
*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Süleyman Rüstəmindir.*

## “Azərbaycana gəlsin”

***I bənd***

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin.

***II bənd***

Payızında, qışında, baharında, yazında
Dinir dostluq nəğməsi könüllərin sazında.
Sabaha addımlayan mərd oğlunda, qızında
Qeyrət görmək istəyən Azərbaycana gəlsin.

***III bənd***

Bağçaları, bağları, zavalsızdır qış-bahar,
Məhəbbəti, şöhrəti dolaşır diyar-diyar.
Al bayraqlar altında, alnı açıq, bəxtiyar
Millət görmək istəyən Azərbaycana gəlsin.

**T 1** **Müəllimin göstərişlərinə diqqət edərək “Azərbaycana gəlsin” mahnısını oxuyun.**



**“Azərbaycan”**
*Azərbaycan xalq rəqsi*

**T 2** **“Azərbaycan” xalq rəqsini şən əhvali-ruhiyyə ilə ifa edin.**

**Dərsdə sizin üçün maraqlı olan nələr idi?**

***Rəqs elementləri sxemi***




**T 3** **Verilmiş musiqi nümunələrini müvafiq dairə ilə birləşdirin.**

**Xalq musiqisi**

**Professional musiqi**

- Azərbaycan Respublikasının Dövlət Himni
- “Azərbaycana gəlsin” mahnısı
- “Azərbaycan” rəqsi



DƏRS 2

# BƏSTƏKARLARIN ƏSƏRLƏRİNDƏ XALQ MUSİQİSİ

**Professional musiqini xalq musiqisindən necə fərqləndirmək olar?**



Üzeyir Hacıbəyli Azərbaycan professional musiqisinin banisidir. O, ilk dəfə olaraq Azərbaycan xalq mahnılarını toplamış və nota köçürmüşdür. Onun bu işini digər Azərbaycan bəstəkarları davam etdirmişlər. Müslüm Maqomayev, Asəf Zeynallı, Fikrət Əmirov, Səid Rüstəmov, Tofiq Quliyev və başqalarının da xalq musiqisinin qorunub saxlanılmasında böyük xidmətləri olmuşdur.



**"Bağçada gül"**
*Azərbaycan xalq mahnısı*

## "Bağçada gül"

***I bənd***

Şəfəq saçır gün bizə,
– Pəh, pəh, nə gözəl olur.
Çıxaq tarlaya, düzə,
– Pəh, pəh, nə gözəl olur.
Qızlar, bu al səhərdə
Gəlin duraq üz-üzə.

***Nəqərat:***

Bağçalar gül açır,
Bülbüllər dil açır,
Geyinir al-əlvan,
– Pəh, pəh, nə gözəl.

***II bənd***

Tarlalarda biz gəzək,
– Pəh, pəh, nə gözəl olur.
Pambıq dərək, gül dərək,
– Pəh, pəh, nə gözəl olur.
Muğanın sərvətindən
Hər tərəfə göndərək.

***Nəqərat.***

**T1** **"Bağçada gül" mahnısını ifa edərək eyni anda oxumağa başlayın və birgə bitirin.**

Azərbaycan professional musiqisinin formalaşmasında xalq musiqisinin böyük rolu olmuşdur. Bəstəkarlar xalq musiqisindən öz əsərlərində istifadə etmişlər. Elmira Nəzirova bir neçə Azərbaycan xalq melodiyasını fortepiano üçün işləmişdir. Həmin işləmələrindən biri də "8 uşaq pyesi" məcmuəsidir.



**"8 uşaq pyesi" məcmuəsindən 6, 7, 8 nömrəli pyeslər**
*Musiqisi Elmira Nəzirovanındır.*

**T2** **Xanada pyesin nömrəsini yazmaqla cümləni tamamlayın.**
"Bağçada gül" Azərbaycan xalq mahnısının melodiyasından ______ nömrəli pyesdə istifadə olunmuşdur.

**T3** **Musiqi nümunələrini müqayisə edin.**






**Xalq musiqisi ilə professional musiqini fərqləndirmək üçün dərsdə hansı işləri gördünüz?**

DƏRS 3

# MUSİQİLİ KÖRPÜLƏR

**Bəstəkarlar öz əsərlərində xalq musiqisindən niyə istifadə edirlər?**

Bəstəkarlar öz əsərlərində xalq musiqisindən geniş istifadə etmişlər və indi də edirlər. Digər xalqların mövzusuna müraciət etdikdə isə həmin xalqın melodiya və ritmlərindən öz əsərlərində istifadə edirlər.

Belə əsərlərdən biri görkəmli Azərbaycan bəstəkarı Əşrəf Abbasovun Süleyman Sani Axundovun əsəri əsasında yazdığı "Qaraca qız" **balet**idir. Bəstəkar bu baletdə Qaraca qız obrazını yaratmaq üçün qaraçı musiqisinin ritmlərindən istifadə etmişdir.



**Balet məzmunu, əsasən, rəqs etməklə ifadə olunan musiqili səhnə əsəridir.**

## Baletin qısa məzmunu:



Əsərdə körpəlikdən ata-anasını itirən xeyirxah və cəsarətli Tutunun (Qaraca qız) taleyindən danışılır. Bu qız əvvəl qaraçıların, sonra isə Piri babanın himayəsində yaşayır.

Piri baba zəngin bir ailənin bağbanıdır. Tutu ailənin qızı Xədicə (Ağca) ilə dostluq edir. Tutu dostluğuna sadiq qalaraq rəfiqəsi Ağcanı ölümdən qurtarır.

**“Qaraca qız” baletindən “Qaraca qızın rəqsi”**
*Musiqisi Əşrəf Abbasovundur.*

Bəstəkarlar **opera** janrında da əsərlər yazarkən xalq musiqisindən istifadə etmişlər. Belə bəstəkarlardan biri də Mixail Qlinkadır. O, “Ruslan və Lyudmila” operasında “Qalanın dibində bir quş olaydım” Azərbaycan xalq mahnısından istifadə etmişdir.

**T1** **“Qaraca qızın rəqsi”nin ritminə uyğun əl çalın.**

**Opera** məzmunu, əsasən, oxumaqla ifadə olunan musiqili səhnə əsəridir.

***Operanın qısa məzmunu:***

**“Ruslan və Lyudmila” operasından “Qızların xoru”**
*Musiqisi Mixail Qlinkanındır.*

Cadugər Çernomor gözəl Lyudmilanı qəsrində əsir edir. Cəngavər Ruslan bütün maneələrdən keçərək onu xilas edir. Hər bir nağıl kimi, bu nağıl da xoşbəxt sonluqla bitir – xeyir şərə qalib gəlir.





**“Qalanın dibində bir quş olaydım”**
*Azərbaycan xalq mahnısı*

## *“Qalanın dibində bir quş olaydım”*

**I bənd**
Qalanın dibində bir quş olaydım,
Gələnə, gedənə yoldaş olaydım.

**II bənd**
Qardaşsız qızlara qardaş olaydım,
Gələnə, gedənə yoldaş olaydım.

**III bənd**
Qaladan qalaya nar yemək olmaz,
Hər gələn adama can demək olmaz.

**IV bənd**
Anama söyləyin atımı satsın,
Səsimiz, sözümüz dostlara çatsın.

**V bənd**
Qalanın dibində yıxıldım yatdım,
Yuxuda əlimlə ulduza çatdım.

**T2** **Başqalarından geri qalmadan və tələsmədən “Qalanın dibində bir quş olaydım” mahnısını xorla oxuyun.**

**T3** **Cədvəli tamamlayın.**

| Musiqi nümunəsinin adı | Janr | Professional musiqi | Xalq musiqisi |
|---|---|---|---|
| “Qaraca qızın rəqsi” | Balet | ⭐⭐⭐ | ⭐⭐⭐ |
| “Qalanın dibində bir quş olaydım” | Mahnı | ⭐⭐⭐ | ⭐⭐⭐ |
| “Qızların xoru” | Opera | ⭐⭐⭐ | ⭐⭐⭐ |



**Xalq musiqisi və professional musiqi haqqında yeni nə öyrəndiniz?**



# II BÖLMƏ

# MUSİQİ KOLLEKTİVLƏRİ


4 İnstrumental ansambllar

5 Rəqs musiqisi

6 Vokal kollektivləri





Bəzən musiqi kollektivini musiqi ansamblı və ya musiqi dəstəsi də adlandırırlar. İnstrumental, rəqs və vokal musiqi kollektivləri mövcuddur. Həmin kollektivləri birləşdirən onların musiqi əsərlərinin ifası üzərində bir yerdə işləməsidir.

DƏRS 4

# İNSTRUMENTAL ANSAMBLLAR

**İnstrumental ansamblları necə təşkil etmək olar?**

İnstrumental ansambllar eyni və müxtəlif musiqi alətlərindən ibarət olur. İfaçıların sayına görə ansambl müxtəlif adlar daşıya bilər: duet (iki ifaçı), trio (üç ifaçı), kvartet (dörd ifaçı), kvintet (beş ifaçı) və s. Ansamblda ifa edən musiqiçilər əsərin birgə başlanıb birgə bitməsinə, onun temp və ritminə, dinamik çalarlarına və s. diqqət yetirməlidirlər. Elə əsərlər var ki, bir alət üçün yazılsa da, həmin əsəri digər alətlər, müxtəlif instrumental ansambllar da ifa edir.

Belə əsərlərdən biri görkəmli Avstriya bəstəkarı İohanes Bramsın fortepiano üçün yazılmış 5 nömrəli “Macar rəqsi”dir. Bu əsər macar xalq rəqsinin melodiyasına əsasən yazılmışdır.



**Ansambl birgə, cəm halında ifadır.**

## “Qoy skripkaları kökləsinlər”



**“Qoy skripkaları kökləsinlər”**
*Çex xalq mahnısı*

### *I bənd*

Skripkaları kökləyin, tez olun.
Şeypurları qaldırın, tez olun.
Bayram keçiririk burda bu gün.
Yaşlı, gənc də rəqs edəcək bu gün.

### *II bənd*

Əgər kim oynamaq istəməsə,
Onsuz da başlayarıq biz rəqsə.
Kabluklar özləri vuracaq,
Başmaqlar özləri oynayacaq.

### *III bənd*

Biçinçilər tarladan gəldilər –
Fleytalar da lap şən çaldılar.
Yaşlı və gənc indi rəqs etsin.
Səhərədək bayram davam etsin.

**T1** “Qoy skripkaları kökləsinlər” mahnısını ifa edərkən müxtəlif ansambllarda çalmağı hərəkətlərlə təsvir edin.



**“5 nömrəli macar rəqsi”**
*Musiqisi İohans Bramsındır.*

**T2** “5 nömrəli macar rəqsi”nin ritminə uyğun ansambl şəklində zərb musiqi alətləri ilə müşayiət edin.



**Nəfəs, zərb və simli ansambllara daha harada rast gəlmişsiniz?**

DƏRS 5

# RƏQS MUSİQİSİ

**Rəqsləri kollektiv şəkildə necə ifa etmək olar?**



Xalqın adət-ənənəsi, məişəti, sevinc, kədər və s. təkcə mahnılarda deyil, xalq rəqslərində də özünü göstərir. Rəqslərin özü kimi rəqs musiqilərinin də tarixi çox qədimdir. Keçmişdə bəzi xalq rəqsləri təkcə zərb musiqi alətləri ilə, bəziləri isə oxumaqla müşayiət olunurdu. Sonralar rəqs musiqisi instrumental musiqiyə də çevrildi. Rəqs musiqisi formaca iki və ya üç hissəli, tempinə görə asta, mülayim və tezsürətli olur. Rəqslər solo, duet və müxtəlif tərkibli (qadın, kişi və qarışıq) kollektivlərlə ifa olunur.

**Solo musiqi əsərinin bir nəfər tərəfindən ifası; duet musiqi əsərinin iki nəfər tərəfindən ifasıdır.**

"Cəngi" Azərbaycan xalq rəqsi qəhrəmani xarakterlidir. O, qılınc və qalxanlarla kollektiv şəkildə ifa olunan rəqsdir. "Cəngi" döyüş meydanında hərəkətləri təsvir edən əsl cəngavərlik rəqsidir. Dahi bəstəkarımız Üzeyir Hacıbəyli "Koroğlu" operasında xalqın obrazını yaratmaq üçün bu rəqsin melodik və ritmik xüsusiyyətlərindən istifadə etmişdir.

**"Koroğlu" operasından "Cəngi"**
*Musiqisi Üzeyir Hacıbəylinindir.*

**T1** **"Cəngi" rəqsinin ifa qaydasına uyğun şəkli seçin.**







**T2** **Kollektiv rəqs etmək üçün 3 qayda tərtib edin.**



**“El yallı”**
Azərbaycan xalq mahnısı

Yallılar xalqımızın tarixini, mədəniyyətini, milli ruhunu özündə əks etdirən kütləvi xalq rəqsləridir. Onlarda mərdlik, çeviklik, sevinc öz əksini tapır. Rəqs musiqisinə mətn (şeir) əlavə olunanda yallıları mahnı kimi də ifa edirlər.
Azərbaycan xalq mahnısı “El yallı” bu gün xalq arasında həm rəqs, həm də mahnı kimi tanınır.

***“El yallı”***

Sağ, sağ, sağ ayağın qabağa,
Sol, sol, sol ayağın qabağa.
Bir addım irəli,
Sol ayağın qabağa.
Bir addım geriyə,
Sağ ayağın qabağa.
Sağ ayağın irəli,
Sol ayağın irəli.
Gül açılıb, bülbül oxur.
Bu gün ayın üçüdür,
Girmə, bostan içidir,
Ay, hay, a yallı!

**T3** **“El yallı” mahnısını oxuyarkən kollektiv şəkildə rəqs edin.**

***Rəqs elementləri sxemi***



1 2 3 4 5 6



**Rəqslərin kollektiv ifasında sizə nə kömək etdi?**

DƏRS 6

# VOKAL KOLLEKTİVLƏRİ

**Vokal musiqi nümunələrinin ifaçı tərkibini necə müəyyən etmək olar?**

Vokal musiqisi səs (oxumaq) üçün yazılmış musiqidir. Həmin musiqini müxtəlif tərkibli ifaçılar qrupu – ansambllar ifa edir. Digər kollektivlər kimi vokal ansamblları da ifaçıların sayına görə müxtəlif olur: duet, trio, kvartet, kvintet və s.



Vokal kollektivlərinə dirijor rəhbərlik edir. İfaçı sayına görə ən iri vokal kollektivi xor adlanır. Bəzi xorları müşayiət etmirlər. Belə xorlar *a kapella* adlanır.

Xor kollektivini bir neçə xüsusiyyətinə görə ayırmaq olar: ifaçıların tərkibinə görə, ifaçıların sayına görə, ifa tərzinə və professional hazırlığa görə.



Dirijor musiqi əsərinin ifasını idarə edən musiqiçidir.



**T1 Verilmiş fikirlərə uyğun anlayışları seçin.**



| Fikirlər | Anlayış |
|---|---|
| Üç nəfərdən ibarət vokal ansamblın ifası | Xor |
| Birgə, cəm halında kiçik vokal qrupunun ifası | Vokal ansamblı |
| Birgə, cəm halında böyük vokal kollektivinin ifası | Vokal trio |

**"Zəfər marşı"**
*Musiqisi Rauf Məmmədovun, sözləri Cəlal Qurbanovundur.*

**T2** **Cümlədə nöqtələrin yerinə uyğun gələn ifadəni əlavə edin.**

Dinlənilən "Zəfər marşı"nı ... ifa edir.

a) xor kollektivi
b) vokal trio
c) solo

**"Qarabağ"**



**"Qarabağ"**
*Musiqisi Rəşid Şəfəqin, sözləri Ələmdar Quluzadənindir.*

**I bənd**

Çayım səndə, dağım səndə,
Yağış olum, yağım səndə.
Göy üzündə şimşəyimsən,
Yer üzündə ürəyimsən,
Gərəyimsən, kürəyimsən,
Ay Qarabağ, bağım səndə.

**Nəqərat:**

Mən yanan odlara
Yanma, Qarabağ!
Sınanır Qarabağ,
Sınma, Qarabağ!

**II bənd**

Dağlarında qar görmüşəm,
Aranında bar görmüşəm.
Murovunun buzu bəri,
Söhbətinin duzu bəri,
Göz açandan üzü bəri
Sinən üstə tar görmüşəm.

**Nəqərat.**



**III bənd**

Qartalların qoşa gəlsin,
Xan günlərin xoşa gəlsin.
Susayan var soylarına,
Boy söyləyək boylarına,
Azərbaycan toylarına
Ağdam gəlsin, Şuşa gəlsin!

**Nəqərat.**




**“Ansamblda oxu” oyununun qaydaları:**

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşsın. O, ansamblların adları (trio, kvartet, kvintet) yazılmış kartlardan birini götürüb, onları öz qrupuna təqdim etsin. Səsləndirilən mahnının bəndləri ardıcıllıqla ifa olunur: I bəndini triolar, II bəndini kvartetlər, III bəndini kvintetlər ifa edirlər. Mahnının nəqəratını isə bütün sinif xorla oxuyur.

**T3** **“Qarabağ” mahnısını xor qaydalarına riayət etməklə ansambl şəklində oxuyun.**



Ansamblda oxumaq sizə nə öyrətdi?



## III BÖLMƏ

# MUSİQİ ƏSƏRLƏRİNİN MELODİYALARI


7 Mahnının melodiyası və mətni

8 Melodiyada intervallar

9 Musiqi ifadə vasitələri





Ətrafdakı gözəlliyi bəstəkarlar melodiyalarla ifadə edirlər. Müxtəlif obrazları, həyat hadisələrini, füsunkar təbiət lövhələrini əks etdirən melodiyalar vardır. İnsanlar melodiyaları dinləyərkən onlarda müxtəlif təsəvvürlər yaranır.

DƏRS 7

# MAHNININ MELODİYASI VƏ MƏTNİ

Nə üçün mahnıdan sözləri "atmaq olmaz"?



Sadə musiqi dili ilə fərqlənən mahnı geniş yayılmış janrdır. O, melodiya ilə sözün vəhdətindən yaranır. Mahnılar müxtəlif xarakterli olur. Şeirin məzmunu, melodiyanın major və ya minor ladında yazılması, tempi və digər musiqi ifadə vasitələri mahnının xarakteri haqqında fikir söyləməyə imkan yaradır.

Bir çox operalarda obrazların xarakterini açmaq üçün bəstəkarlar mahnılardan da istifadə edirlər. Belə operalardan biri dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Sevil" operasıdır. Opera görkəmli Azərbaycan yazıçısı Cəfər Cabbarlının eyniadlı əsəri əsasında yazılmışdır. Əsər XX əsrin əvvəllərində olan mühüm bir problemə həsr edilmişdir: qadın azadlığı, onun bir şəxsiyyət kimi yüksəlişi.

Operanın əsas qəhrəmanlarından biri Sevildir. Bu obrazın bir xüsusiyyətini əks etdirmək üçün bəstəkar layladan istifadə etmişdir.

**"Sevil" operasından "Laylay"**
*Musiqisi Fikrət Əmirovundur.*



**T1 "Laylay" mahnısının melodiya və mətni haqqında fikirlərinizi üç cümlə ilə ifadə edin.**

Xalq mahnıları ilə yanaşı, bəstəkarlar tərəfindən yazılmış mahnılar da vardır. Xalq musiqi ənənələrinə əsaslanaraq bəstəkarlar öz yaradıcılığında bu janra daha çox müraciət edirlər. Onlardan biri görkəmli Azərbaycan bəstəkarı Cəlal Abbasovdur. O, şair Ramiz Yusifoğlunun sözlərinə "Fəsillər" mahnısını bəstələmişdir. Mahnı major ladında, tez tempdə və şən xarakterlidir.

**"Fəsillər"**
*Musiqisi Cəlal Abbasovun, sözləri Ramiz Yusifoğlunundur.*






**"Fəsillər"**

***I bənd***

A daşdı, daşdı, daşdı,
Qar əridi, su daşdı.
Tumurcuqlandı meşə,
Baş qaldırdı bənövşə.
Yaz gəlir, a yaz gəlir,
Baş qaldırdı bənövşə.

***II bənd***

A yandı, yandı, yandı,
Çöllər nura boyandı.
Az qalır ki, od yağa,
Gərək köçək yaylağa.
Yay gəlir, a yay gəlir,
Gərək köçək yaylağa.

***III bənd***

A düşdü, düşdü, düşdü,
Yarpaqlar düşdü, düşdü.
Soldu çöllər, yamaclar,
Çılpaqlandı ağaclar.
Payız gəldi, a gəldi,
Çılpaqlandı ağaclar.

***IV bənd***

A dondu, dondu, dondu,
Şaxta gəldi, su dondu.
Yağış dönüb, oldu qar,
Düzlər geydi ağ paltar.
Qış gəlir, a qış gəlir,
Düzlər geydi ağ paltar.



**"Fəsillər"**
*Musiqisi Cəlal Abbasovun, sözləri Ramiz Yusifoğlunundur.*

**T2** **Verilmiş sözlərdən "Fəsillər" mahnısının melodiya və mətninə uyğun olanları seçin.**

Mahnının mətni

- fikirli
- gümrah
- hirsli
- qəhrəmani
- oynaq
- sevincli

Mahnının melodiyası

**T3** **Verilmiş cədvəlin əsasında qrupların ifasını qiymətləndirin.**

| Meyar | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| İfa zamanı müəllimin göstərişlərinə diqqət yetirir. | | | | |
| Bir mahnını eyni anda oxumağa başlayır və birgə bitirir. | | | | |
| İfa zamanı başqalarından geri qalmır və tələsmir. | | | | |
| Mahnını ifadəli oxuyur. | | | | |




Dərsdə sənin üçün maraqlı nə oldu?



DƏRS 8

# MELODİYADA İNTERVALLAR

**Musiqidə intervalları necə müəyyən etmək olar?**



Bizi əhatə edən ətraf aləm müxtəlif səslərdən ibarətdir. Həmin səslərdən istifadə etməklə bəstəkarlar rəngarəng əsərlər yaradırlar. Onların melodiyaları bəzən eyni səslərin üzərində, bəzən də yuxarı və ya aşağı istiqamətdə hərəkət edir. Melodiyanı təşkil edən səslərin arasındakı məsafələr intervallarla ölçülür.

İntervalların adları səslərin arasında məsafəyə görə müxtəlifdir (prima, sekunda, tersiya və s). Melodiya bütün musiqi əsərlərinin əsasını təşkil etdiyi üçün bəstəkarlar əsərlərində ona xüsusi fikir verirlər.



İnterval “məsafə”, “ara” deməkdir.

## Melodiyanın hərəkəti sxemləri (ilk intonasiya)





**“Əməyi sevirik biz”**
*Musiqisi Rəşid Şəfəqin,*
*sözləri Rüfət Əhmədzadə, Arif Hüseynlinindir.*

## “Əməyi sevirik biz”

***I bənd***

Əmək dərsi keçirik, doğma məktəbimizdə,
Əl işi öyrənməyə böyük həvəs var bizdə.
Hamımıza xoş gəlir bu sevimli dərsimiz,
Əməyi sevirik biz, əməyi sevirik biz.

***II bənd***

Biri dəmir düzəldir, biri gözəl ev qurur,
Bir qız da ağ parçaya əlvan naxışlar vurur.
Balaca qəlbimizdə sevinc dolu bir dəniz
Əməyi sevirik biz, əməyi sevirik biz.

***III bənd***

Elvin dülgərlik edir, Günay xalı toxuyur,
Hərə öz işi ilə sakitcə məşğul olur.
İşlədikcə həvəslə fərəhlənir qəlbimiz,
Əməyi sevirik biz, əməyi sevirik biz.

***IV bənd***

Məktəbin həyətində əkmişik gül-çiçək,
Açılıb hər tərəfdə nərgizlər, qərənfillər.
Necə də gözəlləşib sevimli məktəbimiz.
Əməyi sevirik biz, əməyi sevirik biz.

**T1** **“Əməyi sevirik biz” mahnısının hər bəndinin 4-cü sətrini 2 səsli oxuyun.**

*Nümunə üçün:* *1-ci səs* Əməyi sevirik biz, əməyi sevirik biz.
*2-ci səs* Əməyi - - - i - - - i - - - i - - - i sevirik biz.

**T2** **Verilmiş sxemə görə musiqi parçasında intervalları müəyyən edin.**



### “İntervalı tapın” oyununun qaydaları:

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşsın. O, 6 musiqi nümunəsinin adları yazılmış kartlardan birini və kartondan hazırlanmış 12 notun fiqurlarını götürüb, öz qrupuna təqdim etsin.
Ardıcıllıqla səsləndirilən musiqi nümunələrindən kiçik parçaları növbə ilə dinləyin. Hər musiqi nümunəsinə adı yazılmış kartda onun ilk intervalına uyğun not fiqurlarını düzün. Sonra həmin kartda intervalın adını yazın.

**T3** **Musiqi nümunələrinin ilk intonasiyasının intervalını müəyyən edin.**

"Bağçada gül"

"Gözəl Vətən"

"Cəngi" xalq rəqsi

"Mahnı və rəqs"

"Qalanın dibində bir quş olaydım"

"Çal, oyna"

**Nümunə: “Qatar” mahnısına aid kart**





"Qatar" mahnısı

İntervalın adı:
Sekunda



İntervalların müəyyən edilməsində sizə nə kömək etdi?

DƏRS 9

# MUSİQİ İFADƏ VASİTƏLƏRİ

**Musiqi əsərində musiqi ifadə vasitələrinin seçiminə nə təsir edir?**



Musiqi ifadə vasitələrinə melodiya, ritm, lad, tembr, dinamika, ölçü, temp və registr aiddir. Onlar musiqi əsərlərinin xarakterini əks etdirir. Əsərdə musiqi ifadə vasitələri bir-birini tamamlayaraq musiqi obrazı haqqında dinləyicidə müəyyən təsəvvürlər yaradır.



| Melodiya | Ritm | Temp | Lad |
|---|---|---|---|
| qalxan | ahəng | asta | major |
| enən | oynaq | orta | minor |
| | marş | tez | |

| Registr | Dinamik çalarlar | Ölçü *(dirijorluq sxeminə əsasən)* | Tembr *(musiqi alətlərinə əsasən)* |
|---|---|---|---|
| yuxarı | f *(forte)* | “bir və, iki və” | zərb |
| orta | *p (piano)* | “bir və, iki və, üç və” | nəfəs |
| aşağı | | “bir və, iki və, üç və, dörd və” | simli |



**"Dağlar"**
*Musiqisi Səid Rüstəmovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*



## "Dağlar"

**I bənd**

Dərələri çox dərin
Köhlən buludlu dağlar.
Suları buzdan sərin
Ey şabalıdlı dağlar.

**Nəqərat:**

A dağlar, qarlı dağlar,
Hamıdan varlı dağlar.
A dağlar, uca dağlar,
Hamıdan qoca dağlar.

**II bənd**

Döşü güllü-çiçəkli,
Yoncalı, biçənəkli,
Meşələri tənəkli,
Moruqlu, tutlu dağlar.

**Nəqərat.**

**III bənd**

Bülbüllərin gülşəni,
Ceyranların məskəni,
Qəhrəmanlar Vətəni,
Ey qartal yurdlu dağlar!

**Nəqərat.**

**Dirijorluq sxemi**




**T1** **"Dağlar" mahnısını oxuyaraq dirijorluq edin.**

**T2** **"Dağlar" mahnısında melodiya ilə mətnin uyğunluğunu bir neçə cümlə ilə ifadə edin.**

Qafqazda yaşayan xalqların bəzi rəqsləri xarakterinə görə oxşardır. Həmin xalqlar onları özünəməxsus adlandırır (məsələn, ləzginka, qaytağı, kabardinka və s.).

Azərbaycan xalq rəqsi "Qaytağı" qədim kökə malikdir. Vaxt keçdikcə döyüşçü rəqsi olan "Qaytağı"-ya yarış, oyun çalarları da əlavə olunmuşdur. Bu rəqs oynayanların çevikliyini və gücünü nümayiş etdirir.

Ləzgi xalq rəqsi "Ləzginka" isə gənclər arasında rəqabəti təsvir edən bir rəqsdir. Bu rəqsdə oğlanlar güc və çeviklik, qızlar isə zəriflik nümayiş etdirirlər.

**"Qaytağı"**
*Azərbaycan xalq rəqsi*

**"Ləzginka"**
*Ləzgi xalq rəqsi*





**"Qaytağı"**
*Azərbaycan xalq rəqsi*

**T3** **Dinlədiyiniz rəqslərin oxşar musiqi ifadə vasitələrini sadalayın.**



Musiqi ifadə vasitələri haqqında yeni nə öyrəndiniz?



# IV BÖLMƏ

# İKİSƏSLİ MUSİQİ


10 Musiqidə əks-səda

11 Ritmik ikisəslilik

12 Kanon

13 Səsaltı sədalar





Musiqi incəsənətin bir növüdür. O, insanın təəssüratlarını, hiss və fikirlərini müxtəlif melodiyalarda ifadə edir. Musiqi aləmində bəzi əsərləri xalq musiqisinə, bəzilərini isə professional musiqiyə aid edirlər.

DƏRS 10

# MUSİQİDƏ ƏKS-SƏDA

**Nə üçün musiqidə əks-səda üsulundan istifadə olunur?**

Bəzən dağlarda, qayalarda danışarkən və oxuyarkən səsimiz bir və bir neçə dəfə təkrarlanır. Təkrarlar eyni və ya fərqli ola bilər. Bu, əks-sədadır. Musiqidə də əks-sədadan (imitasiya) istifadə olunur.



“Əks-səda” mahnısında imitasiyadan istifadə edilib. Mahnıda imitasiya zamanı bəzi sözlərin sonluqları təkrar olunur. “Dağlarda əks-səda” pyesində isə bir musiqi cümləsi eynilə əvvəl zil, sonra bəm səslərdə səslənir. Pyesdə əks-sədanın imitasiyasında dinamik çalarlardan da istifadə olunub.



**İmitasiya kimisə və ya nəisə təqlid və ya təkrar etməkdir.**



**“Əks-səda”**

*Musiqisi Hökümə Nəcəfovanın, sözləri Xanımana Əlibəylinindir.*

“Əks-səda”

***I bənd***

Mən onu səsləyərək
Dağ boyu gəzirəm tək.
Əks-səda danışır,
Lap tutur məni gülmək.
Çağırdım, tez gəl bura,
Dağlar boyanıb nura.
O sevinib şad oldu,
Çığırdı ura-ura.

***II bənd***

Hey dağları dolaşdım,
Çoxlu təpələr aşdım.
Mən onu axtararaq
Bir qayaya yanaşdım.
Çağırdım, tez gəl bura,
Dağlar boyanıb nura.
O sevinib şad oldu,
Çığırdı ura-ura.

***III bənd***

Dağ boyu xeyli müddət,
Etdik onunla söhbət!
Əks-səda mənimlə
Aya uçacaq, əlbət.
Mən dedim əks-sədaya,
Sonra gedərik çaya.
O isə cavabında
Çığırdı aya-aya.



**T1** “Əks-səda” mahnısının hər bəndinin birinci dörd misrasını əks-səda üsulu ilə (əvvəl ***f***, sonra ***p***) ikisəsli oxuyun.

**“Dağlarda əks-səda” pyesi**
*Musiqisi Samuil Maykaparındır.*

**T2** Verilmiş sxemdə qeyd olunmuş intervalları müəyyən edin.

**“Dağlarda əks-səda” pyesindən bir parça**




**Bu dərsdə öz fəaliyyətiniz haqqında nə deyərdiniz?**

DƏRS 11

# RİTMİK İKİSƏSLİLİK

**Mahnıların müşayiətində ritmik ikisəsliliyi necə təşkil etmək olar?**



Musiqi nümunələrini müxtəlif üsullarla müşayiət etmək olar: əl və çırtma çalmaqla, rəqs və marş hərəkətləri ilə, hər hansı bir musiqi alətində müşayiət etməklə və s. Eyni zamanda ritmik müşayiəti bir neçə üsulla yerinə yetirirlər. Bu zaman ritmik müşayiətdə ikisəslilik yaranır. İkisəsli müşayiətin hər bir səsinin fərqli ritmik şəkli olur.



**“Azərbaycana gəlsin”**
*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Süleyman Rüstəmindir.*

## “Azərbaycana gəlsin”

— *əl çalmaq*

— *əlləri havada yellətmək*

***I bənd***

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin.



**T1** **“Azərbaycana gəlsin” mahnısının birinci bəndini verilmiş sxemə əsasən hərəkət edərək ifa edin.**



**"Yolka nəğməsi"**
*Musiqisi Soltan Hacıbəyovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

*"Yolka nəğməsi"*



***I bənd***

Budur təzə il gəlir,
Gözəl şənlik düzəlir.
Xoş nəğməmiz yüksəlir,
Yolka bizə qonaqdır,
Ulduzları parlaqdır,
Şaxta baba dümağdır.

***Nəqərat:***

Vermişik biz əl-ələ,
Əl-ələ, əl-ələ,
Oynayırıq bax belə,
Bax belə, bax belə.

**T2** **"Yolka nəğməsi"ni ifa edərək sxemə uyğun rəqs edin.**



*şagird*
*1-ci addım*
*2-ci addım*



**Hansı mahnının ritmik müşayiəti daha maraqlı idi?**



# DƏRS 12 KANON

**Kanonla ifa olunan mahnını ritmik müşayiətlə necə əlaqələndirmək olar?**

Musiqidə kanon bir neçə səsin bir-birinin ardınca olduğu kimi növbə ilə səslənməsidir. Bir səsdə melodiya səslənir, qısa müddətdən sonra başqa səslə həmin melodiya gecikmə şərtilə təkrarlanır. Beləliklə, kanon üsulunda eyni bir melodiya müxtəlif səslərdə dəyişmədən təkrarlanır.





**“Yolka nəğməsi”**
*Musiqisi Soltan Hacıbəyovun,*
*sözləri Mirmehdi Seyidzadənindir.*

**T1** **“Yolka nəğməsi”nin nəqəratını verilmiş sxemə görə ifa edin.**

***Nəqərat:***

Vermişik biz əl-ələ, Əl-ələ, əl-ələ, Oynayırıq bax belə, Bax belə, bax belə.

***f***

Vermişik biz əl-ələ, Əl-ələ, əl-ələ, Oynayırıq bax belə, Bax belə, bax belə.

***p***



## "Zarafatyana kanon" oyununun qaydaları:

Sinif iki qrupa bölünür. Birinci qrup (1-ci səs); ikinci qrup (2-ci səs). Mahnını oxuyarkən hər misraya uyğun müəyyən hərəkətlər yerinə yetirilir. Oyuna I qrup başlayır. I qrup 1-ci misranı bitirib 2-ci misraya başlayanda II qrup 1-ci misranı oxumağa başlayır və müvafiq hərəkətlər yerinə yetirilir: 1-ci misrada əl çalmaq,
2-ci misrada əlləri havada yellətmək, 3-cü misrada şəhadət barmaqlarını silkələmək, 4-cü misrada ayaqları tappıldatmaq. Beləliklə, oyun kanon şəklində davam edir.

**T2** **Mahnının kanonla ifası zamanı şəkillərdə verilmiş hərəkətləri icra edin.**

1 *Oxuduqca unison*





**Unison** birsəslilik, bir neçə ifaçının birlikdə eyni musiqini ifa etməsidir.

2 *Öyrənirik biz kanon.*



3 *Kim oxumasa kanon,*



4 *Olacaqdır turş limon.*



**Cümləni necə tamamlayardınız?**
**"Bugünkü dərs mənim üçün… ".**



DƏRS 13

# SƏSALTI SƏDALAR

**Musiqi əsərlərinin səsaltı sədalarını necə oxumaq olar?**



Bəstəkarlar musiqi əsərlərini yazarkən səsaltı sədalar üsulundan da istifadə edirlər. Bu üsul ikisəsli musiqinin bir növüdür. Səsaltı sədalar əsas melodiyadan asılı olur. Onlar melodiyanın müəyyən bir hissəsini zil və ya bəm səsdə təkrarlayır. Bəzən əsas melodiya səsləndikcə səsaltı sədalar eyni səsdə təkrarlanır. Bu zaman əsas melodiya daha təsirli və ifadəli olur.



**"Qəhrəmanlar"**
*Musiqisi Ramiz Mustafayevin, sözləri Tofiq Mütəllibovundur.*

## "Qəhrəmanlar"

| | ***I bənd*** | ***II bənd*** |
|---|---|---|
| *1-ci səs* | Hər zaman eşidirik | Gözəl, şirin arzular |
| *səsaltı müşayiət* | Qəh – rə – | Qəh – rə – |
| *1-ci səs* | İgidlərin səsini. | Boy atır qəlbimizdə. |
| *səsaltı müşayiət* | man – lar. | man – lar. |
| *1-ci səs* | Onlardan öyrənirik | İgid babalar kimi |
| *səsaltı müşayiət* | Qəh – rə – | Qəh – rə – |
| *1-ci səs* | Qəhrəmanlıq dərsini. | Qəhrəman olaq biz də. |
| *səsaltı müşayiət* | man – lar. | man – lar. |

***Nəqarat:***

Könül açır nəğməmiz
Hər tərəfi dolaşır.
Qəhrəmanlar yurduna
Qəhrəmanlıq yaraşır.

***Nəqarat.***



**T1** **“Qəhrəmanlar” mahnısının bəndlərinin səsaltı sədalarını eyni səsdə oxuyun.**

**“Yeddi gözəl” baletindən “Hind gözəlinin rəqsi”.**
*Musiqisi Qara Qarayevindir.*

**T2** **Sxemdə “Hind gözəlinin rəqsi”nin melodiyasına verilmiş səsaltı sədalarını notla oxuyun.**








# I YARIMİL
# KROSVORD



**1** “İfa zamanı başqalarından geri qalmayın və tələsməyin”. Bu hansı qaydalara aiddir?

**2** Üç ifaçıdan ibarət ansambl

**3** Zərb musiqi alətində müşayiət edərkən hansı musiqi ifadə vasitəsinə diqqət verilir?



**4** Bəstəkarlar tərəfindən yaranan musiqi

**5** “Fəsillər” mahnısının ladı





"Dərələri çox dərin,
Köhlən buludlu dağlar"

**6** Sözləri ilə başlayan, bir və, iki və ölçüsündə olan mahnının adı

**7** “Azərbaycan” xalq rəqsinin xarakteri

**8** “Cəngi” Azərbaycan xalq rəqsinin melodiyası bu intervaldan başlayır

**9** “Fəsillər” mahnısının melodiya və sözlərinin uyğunluğunu xarakterizə edən söz

**10** Bu rəqs xarakterinə görə “Ləzginka” rəqsini xatırladır





"Sağ, sağ, sağ ayağın qabağa,
Sol, sol, sol ayağın qabağa"

**11** Musiqidə əks-sədanı yaratmaq üçün hansı dinamik çalardan istifadə edilir?

**12** Mahnıdan götürülən bu sözlər hansı Azərbaycan xalq rəqsini təsvir edir?

## V BÖLMƏ

# MUSİQİ VƏ İNCƏSƏNƏTİN BAŞQA NÖVLƏRİ


14 Musiqi və ədəbiyyat

15 Musiqili ekran

16 Musiqili tamaşa

17 Daşları canlandıran sənət və musiqi

18 Novruz əyləncələri





İnsanın həyatında incəsənət böyük rol oynayır. Musiqi, ədəbiyyat, rəssamlıq, heykəltaraşlıq, kino və teatr incəsənətin növləridir. Bəzən müxtəlif incəsənət əsərlərində eyni məzmun və hisslər əks olunur.

# DƏRS 14 MUSİQİ VƏ ƏDƏBİYYAT

**Nə üçün musiqi əsərlərini bədii nümunələrə uyğunlaşdırmaq olur?**

Bəzən musiqi əsərləri bədii mətnlərin yazılmasına səbəb olur. Bəzən də ədəbi mətnlər yeni-yeni musiqi əsərlərinin yaranmasına təkan verir. Bədii mətnlərsiz nə opera, nə də balet yarana bilər. Şeirsiz isə mahnı və digər vokal əsərlərini yazmaq olmaz.



Ədəbiyyat və musiqinin əsas mənbəyi bizi əhatə edən dünyadır. Həm ədəbi, həm də musiqi əsərlərində eyni mövzu öz əksini tapır, təəssüratlarımızı tamamlayır, zənginləşdirir və gücləndirir.

Lakin musiqi və ədəbiyyat öz ifadə vasitələrinə, forma və təsir qüvvəsinə görə fərqlənir.

**"Dilarə"**
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Tofiq Mütəllibovundur.*

"Dilarə"



**I hissə**

Təbaşirə bulaşmışdı,
Dilarənin saçı, üzü
Arxayınca gəzirdi o,
Xəbərsizdi bundan özü.

**II hissə**

Pıçıldaşıb gülüşdülər
Onu görcək yoldaşları.
Eldar dedi: – Ağappaqdır,
Üz-gözünə sürtüb qarı.
Gülnar dedi: – Gəlin yaxın,
Bu bəzəkli qıza baxın, bəh-bəh
Saçı ağdır, qaşı ağdır,
Şaxta baba olacaqdır.

**III hissə**

Naznaz isə nə söz dedi,
Nə üzünə güldü onun.
Yaylığını çıxararaq
Üz-gözünü sildi onun.



**T1** **Mahnının hissələrini ritm və tempinə uyğun müşayiət edin.**

**T2** **“Dilarə” mahnısının məzmununa uyğun atalar sözünü seçin.**

- Bu günün işini sabaha qoyma.
- İş insanın cövhəridir.
- Dost yaman gündə tanınar.
- Kitab bilik mənbəyidir.

**“Hekayə” pyesi**
*Musiqisi Qara Qarayevindir.*

**T3** **Verilmiş mətnlərdən “Hekayə” pyesinin xarakterinə uyğun olanını seçin.**



**Dostlar**



Mən sinfimizdəki uşaqlar: Kamilə, Mikayıl, Gülsüm, Arif və Rəna ilə dostluq edirəm. Dərsdən sonra biz bir yerdə oxuyur, oynayır və əylənirik. Biz yaxşı oxumağa çalışır, çətinlik çəkən zaman bir-birimizə kömək edirik.

Tətildən sonra dostumuz Arif məktəbə gəlmədi. Müəllim mənə müraciət edərək soruşdu:

– Uğur, Arifin məktəbə gəlməməsinin səbəbini bilirsən?

Mən Arifin yıxılaraq ayağının möhkəm əzildiyini müəllimə bildirdim. Hər gün növbə ilə Arifgilə gedib ev tapşırıqlarını birgə yerinə yetirdiyimizi də dedim. Müəllim dedi:

– Afərin, Uğur. Siz həqiqi dostlarsınız.



## Günəşin şikayəti

Günəş hər gün al şəfəqlərini saçaraq Yer üzünü işıqlandırırdı. Onun işığı və istisi insanları sevindirir, təbiəti canlandırırdı. Bir gün dünyaya qaranlıq çökdü. Yağış dayanmadan yağır, külək əsir, hava soyuyurdu. Qara buludlar Günəşi mühasirəyə almışdı. Günəş onlardan şikayət etdi: "Buludlar parlamağa, istilik verməyə mənə mane olur. Mən şəfəq saçıb insanlara, təbiətə işıq, istilik verməliyəm. Mənsiz yer üzündə hər şey donar!"



## Pişik və siçan

Kəndimizdəki evlərdən birində böyük ailə yaşayırdı. Ailənin sevimli bir pişiyi var idi. Bəzən pişik evdə tək qalanda çox darıxırdı. Evin zirzəmisində bir siçan məskunlaşmışdı. Günlərin bir günü pişik siçanla rastlaşdı. Pişik çox sevindi, çünki evdə tək qalanda oynamaq üçün dost tapıldı. Ailədə siçanı sevmirdilər. Onu tutmaq üçün bir neçə tələ qurmuşdular. Pişik siçanın tutulmasını istəmirdi. Bir gün səhər yuxudan duran ev sakinləri bütün tələləri zibil qutusunda gördülər. Sən demə, pişik dostunu xilas etmək üçün evdəki tələləri həmin qutuya atmışdı.



**Dərsdəki fəaliyyətinizi hansı sima ilə qiymətləndirərdiniz?**



DƏRS 15

# MUSİQİLİ EKRAN

**Nə üçün filmlərdə səslənən musiqiyə görə onları bir-birinə bənzətmək olur?**



Musiqi əsərlərinin təbliğində televiziya böyük rol oynayır. Televiziya kanallarında nümayış olunan kino və cizgi filmləri, musiqi və əyləncəli proqramlarda tanınmış Azərbaycan və dünya bəstəkarlarının musiqi əsərləri səsləndirilir. Kino və cizgi filmlərində müxtəlif xarakterli musiqi nümunələrindən istifadə olunur. Bu nümunələr filmdə baş verən hadisələr, filmin məzmunu və bədii obrazların əhvali-ruhiyyəsini əks etdirir. Bu da tamaşaçıların hisslərinə təsir edir və film haqqında təəssüratlarını daha da gücləndirir.

**“Bəxtiyar” kinofilmindən “Dostluq mahnısı”**
*Musiqisi Tofiq Quliyevin,*
*sözləri Ənvər Əlibəylinindir.*



### “Dostluq mahnısı”

*I bənd*

Dörd dost, dörd ürək, dörd yoldaşıq biz,
Birdir arzumuz, istəklərimiz.
Hər gün suları tən yara-yara
Birgə gedirik biz buruqlara.

*Nəqərat:*

Ayrılmaz dostlarıq biz,
Tükənməzdir qüvvəmiz.
Qarşımızda baş əyir
Mavi dalğalı dəniz.

*II bənd*

Günəş nur saçır yollarımıza,
Dostluq güc verir qollarımıza.
Dostluq solmayan baharımızdır,
Hər vaxt sədaqət şüarımızdır.

*Nəqərat.*

*III bənd*

O kəs dünyada çox bəxtiyardır,
Sadiq, ayrılmaz dostları vardır.
Dərdi, sevinci birgə bölürlər.
Birgə qəm çəkib, birgə gülürlər.

*Nəqərat.*

**T 1** **Mahnıda əks olunan hisslərə uyğun verilmiş cizgi filmlərindən birini seçin.**









**“Dolu” filmindən bir parça**
*Musiqisi Polad Bülbüloğlunundur.*

## *“Musiqili ekran” oyununun qaydaları:*

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb qiymətləndirmə cədvəlini və iş vərəqini götürür. Videoçarx nümayiş olunur. Qruplar burada səslənən musiqinin xarakterinə uyğun videoçarx üçün kiçik mətn yazıb adlandırırlar. Növbə ilə hər qrupun bir nümayəndəsi qrupun mətnini “ekran” (lövhə) qarşısında oxuyur. Digər qrupların çıxışı isə cədvələ görə qiymətləndirilir (“+” uyğundur, “-” uyğun deyil).

| Qrupun №-si | Mətnin adı | “Mətn musiqinin xarakterinə uyğundur” (“+” və ya “-“) |
|---|---|---|
| 1-ci | | |
| 2-ci | | |
| 3-cü | | |
| 4-cü | | |

**T2** **Verilmiş cədvəl əsasında “Dolu” və “Bəxtiyar” filmlərindəki musiqi nümunələrini müqayisə edin.**

**Dərsdə görülən hansı işinizi daha yüksək qiymətləndirərdiniz?**



DƏRS 16

# MUSİQİLİ TAMAŞA

**Tamaşada musiqi və bədii nümunələrdən necə istifadə etmək olar?**



İstənilən bədii əsəri tamaşaya qoymaq olar. Əgər tamaşada aktyorluq oyunu, dialoqlar, mahnı və rəqs nömrələri birləşirsə, bu, musiqili tamaşadır. Musiqi ilə yanaşı, səhnənin tərtibatı və aktyorların kostyumları musiqili tamaşanın məzmununun çatdırılmasına kömək edir.

**"Şəngülüm, Şüngülüm, Məngülüm" musiqili tamaşası**
*Musiqisi Oqtay Zülfüqarovun, sözləri Ramiz Heydərindir.*

**T1** **"Şəngülüm, Şüngülüm, Məngülüm" musiqili tamaşasının məzmununa uyğun atalar sözlərini seçin.**

1. Bilmədiyini biləndən soruş.
2. Elmsiz adam qanadsız quş kimidir.
3. Düşmən zəif olsa da, ehtiyatı əldən vermə.
4. Yalançının evi yandı, heç kim ona inanmadı.
5. Eşitdiyinə inanma, gördüyünə inan.
6. İki qoçun başı bir qazanda qaynamaz.









**"Balaca dirijor"**
*Musiqisi Asya Sultanovanın, sözləri Teymur Elçinindir.*

**"Balaca dirijor"**

### I bənd

Səs-küy salma kontrabas,
Dayan, qulaq as!
Sən nə gəzirsən şeypur,
Öz yerində dur!

### Nəqarət:

Tez olun, tez olun
Başlayaq işə!



### II bənd

Gülmə, gülmə, saksofon,
Düz otur qarmon!
Yatma, yatma, baraban,
Tütəkdən utan!

**Nəqarət.**

**T2** **Mahnının məzmununda bəhs olunan davranışı hərəkətlərlə təsvir edin.**

**"Musiqi alətləri" oyununun qaydaları:**

Qruplara bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb "Balaca dirijor" mahnısının mətni və müxtəlif musiqi alətlərinin adı yazılmış (arfa, kamança, tar, skripka, saz, ney, çəng, zəng, nağara, gitara, qanun, dəf, fleyta) iş vərəqini götürür. Mahnının mətnində olan musiqi alətlərinin adını siyahıdakı musiqi alətlərinin adı ilə əvəz edin: I bənddə Avropa musiqi alətlərinin adları ilə, II bənddə Azərbaycan xalq musiqi alətlərinin adları ilə. Hər qrup mahnının mətnində etdiyi dəyişikliklərlə onu ifa edir.

**T3** **Musiqi alətində çalmağı təsvir edərək "Balaca dirijor" mahnısını mətndə etdiyiniz dəyişikliklərlə oxuyun.**

**Mahnının məzmununu səhnələşdirmək üçün dərsdə öyrəndikləriniz sizə necə kömək edər?**



DƏRS 17

# DAŞLARI CANLANDIRAN SƏNƏT VƏ MUSİQİ

**Musiqi əsərini heykəltaraşlıqla necə əlaqələndirmək olar?**

Musiqi və heykəltaraşlıq bədii incəsənətin növləridir. İnsanın müxtəlif hisslərini, həyatda baş verən hadisələri bəstəkarlar musiqi əsərlərində, heykəltaraşlar isə abidələrdə əks etdirirlər. Həm musiqidə, həm də heykəltaraşlıqda əsərin əsasını mövzu, süjet və obraz təşkil edir.



**"Yaşa, mənim xalqım"**
*Musiqisi Rauf Məmmədovun, sözləri Zivər Ağayevanındır.*



***"Yaşa, mənim xalqım"***

***I bənd***

Canımızla bağlıyıq
Bu torpağa, bu elə,
Sıralanıb dağ kimi,
Gəlin verək əl-ələ.
Gəl bacım, gəl qardaşım,
Bir olaq, yumruq olaq.
Sinəsi dağlanmasın,
Bölünməsin bu torpaq.

***Nəqərat:***

Yaşa, yaşa, yaşa, mənim xalqım.
Yaşa, yaşa, yaşa, mənim xalqım.

***II bənd***

Ölsə, yada əyilməz,
Düşsə dara, çətinə,
Bu vüqarlı xalqımın,
Qurbanam qeyrətinə.
Türkün qolu bükülməz,
Türkün gücü tükənməz.
Bir kərə qalxan bayraq
Bir daha enməz, enməz.

***Nəqarət.***

***Son üçün:***

Yaşa, yaşa, yaşa, Azərbaycan!

**T1** **“Yaşa, mənim xalqım” mahnısını verilmiş abidələrdən biri ilə müqayisə edin.**



“20 Yanvar” abidə-kompleksi



“Dəmir yumruq” abidəsi



“Ana harayı” abidəsi



“Qalib əsgər” abidəsi

**“Türksayağı rondo”**
*Musiqisi Volfqanq Amadey Motsartındır.*



Davul

**T2** **“Türksayağı rondo” və şəkildəki heykələ əsasən davul musiqi aləti haqqında təqdimat hazırlayın.**

**T3** **“Türksayağı rondo”nun bir parçasını ritminə uyğun barabanda müşayiət edin.**

**Dərsdə daha çox xoşunuza nə gəldi?**



DƏRS 18

# NOVRUZ ƏYLƏNCƏLƏRİ

**Musiqi və bədii nümunələrdə Novruz bayramını necə əks etdirmək olar?**



Novruz bayramı Azərbaycan xalqının sevimli bayramlarından biridir. Bu bayram qədim ənənələrlə, oyunlarla zəngindir. Oyunlar tamaşanı, musiqini, rəqsi, şeiri və incəsənətin başqa növlərini özündə birləşdirir. Novruz bayramında “Kosa-kosa”, “Kəndirbaz”, “Cıdır”, “Gizlənpaç”, “Fincan-fincan”, “Bənövşə” və s. kütləvi əyləncəli milli oyun və tamaşaları oynanılır, kəmənd atmaq, qurşaq tutmaq, daş qaldırmaq, at çapmaq yarışları keçirilir. Bu oyunlar cəldlik və qıvraqlıq aşılayır, gözəllik və xeyirxahlığı tərənnüm edir. Xalq mahnıları və rəqsləri bu oyunların ayrılmaz hissəsidir.

Novruz bayramı bəstəkarları da bu mövzuda musiqi nümunələri yaratmağa ilhamlandırıb. Belə ki bayram şənliklərində xalq musiqisi ilə yanaşı, professional musiqi nümunələri də səsləndirilir.





**"Xoş gəlmisən, Novruzum"**
*Musiqisi və sözləri*
*Səadət Fərziyevanındır.*

### "Xoş gəlmisən, Novruzum"

**I bənd**

Yığışdı bütün ellər,
Yaza salam deməyə,
Gəldi güllər, çiçəklər
Sevinib, rəqs etməyə.
Yaşıl geydi tarlalar:
"Baxın, görün kim gəlib?
Gülər üzlü Novruzum
Bol bərəkət gətirib!"

**Nəqərat:**

Ay kosa-kosa, gəlsənə,
Bir sevinib-gülsənə.
Qaynayıb-qarışsana,
Bizimlə oynasana.

**II bənd**

Bahar gəldi çöllərə,
Torpaq oyandı artıq,
Hər vaxt bahar gələndə
Sevinib ucalarıq.
Xoş gəlmisən, Novruzum,
Qədəmlərin mübarək,
Hər tərəfdə nəğmələr,
Dörd tərəfın gül-çiçək.

**Nəqərat.**

**III bənd**

Fındıq, qoz, badam, püstə,
Süfrələri bəzəyir,
Şəkərbura, paxlava,
Qonaqları gözləyir.
Qapılar döyüləndə
Soruşuruq: "Kimsən sən?"
Açıb, görürük yerdən
Papaq deyir: "Mənəm, mən!"

**Nəqərat.**

**IV bənd**

Ay kosa-kosa, gəlsənə,
Bir sevinib-gülsənə.
Qaynayıb-qarışsana,
Bizimlə oynasana.
Ay kosa-kosa gəlsənə,
Bir sevinib-gülsənə.
Qaynayıb-qarışsana,
Bizimlə oynasana



**T1** **Verilmiş şeirlərdən “Xoş gəlmisən, Novruzum” mahnısının məzmununa uyğun olanını seçin.**

Mənəm qanadlı çiçək,
Adım isə kəpənək.
Al-əlvan xallarım var.
Qızıl kimi parıldar.

Abdulla Şaiq

Ey hörmətli müəllim,
Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə
Sənin meyvələrin var.

Bəxtiyar Vahabzadə

Qaranquş ol zaman gələr,
Yenə tikər yuvasını,
Qonar yaşıl ağaclara,
Oxur gözəl havasını.

Abbas Səhhət

### *“Musiqili bağlama” oyununun qaydaları:*

4 qrupa bölünün. Qruplardan bir nümayəndə masadakı sinidən müxtəlif formalarda (qoğal, paxlava, şəkərbura) üç boş kart, bir ləçək və iki qrupun nömrəsi olan bir kart (bağlamalarla dəyişəcəyi qrupların nömrəsi) götürür. Hər qrup üç boş karta “Novruz” mövzusuna uyğun bir mahnı, bir rəqs adı və sual yazır, onları ləçəyə qoyub bağlama düzəldir. Karta əsasən bağlamalar qruplar arasında dəyişdirilir. Həmin bağlamalarda olan kartlara əsasən qruplar mahnı oxuyur, rəqs edir və sualı cavablandırır.





**T2** **Kartlarda qeyd olunmuş musiqi nümunələrinin bir parçasını ifa edin və suala cavab verin.**



**İncəsənətin növləri haqqında daha nəyi öyrənmək istəyərdiniz?**

## VI BÖLMƏ

# MUSİQİLİ ŞƏKİLLƏR


19 Musiqidə portret

20 Musiqili natürmort

21 Musiqidə təbiət lövhələri

22 Sərgidə





Musiqi və rəngkarlıq incəsənətin növləridir. Hər iki növün oxşar və fərqli ifadə vasitələri vardır. Bu vasitələrlə musiqi və rəngkarlıq əsərlərində müxtəlif obrazları canlandırmaq olur.

# DƏRS 19 MUSİQİDƏ PORTRET

**Musiqidə portreti necə təsvir etmək olar?**



Portret bir və ya bir qrup real insanın təsviridir. Burada insanın xarici görünüşünü təsvir etməklə yanaşı, onun daxili aləmini, xarakterini ifadə etmək mümkündür. Portreti müxtəlif incəsənət növlərində yaratmaq olar. Bu janrda olan əsərlər bəstəkarları musiqi nümunələrini yaratmağa həvəsləndirə bilər. Musiqidəki portretləri də rəsmdə təsvir etmək olur.



**"İgid əsgər, möhkəm dayan"**
*Musiqisi və sözləri Şahin Musaoğlunundur.*

**"İgid əsgər, möhkəm dayan"**

***I bənd***

Çox sınadı bizi zaman,
Neçə şəhid getdi qurban,
Sinəsiylə sipər olan,
İgid əsgər, möhkəm dayan...

***Nəqarat:***

Ya azad ol, ya candan keç, ya candan keç...
İki yoldan birini seç, birini seç...
Azadlığın şərbətini iç, şərbətini iç...
İgid əsgər, möhkəm dayan...

***II bənd***

Salam vətən, salam ana,
Çətin gündə bizi sına,
Qanla cavab verək qana,
İgid əsgər, möhkəm dayan...

***Nəqarat.***

***III bənd***

Şəhid qanı axan torpaq,
Yad ayaqda qalmaz tapdaq...
Düşmənlərin qan qusacaq,
İgid əsgər, möhkəm dayan...

***Nəqarat.***

**T1** **Mahnının məzmun və xarakterinə uyğun əsgər portretini çəkin.**

**T2** **Verilmiş sxemə görə “İgid əsgər, möhkəm dayan” mahnısının bəndlərini iki səsli oxuyun.**

| | |
|---|---|
| *1-ci səs* | Çox sınadı bizi zaman, |
| *2-ci səs* | Çox sınadı, çox sınadı, |
| *1-ci səs* | Neçə şəhid getdi qurban, |
| *2-ci səs* | Neçə şəhid, neçə şəhid, |
| *1-ci və 2-ci səs* | Sinəsiylə sipər olan, |
| *1-ci səs* | İgid əsgər, möhkəm dayan... |
| *2-ci səs* | İgid əsgər, igid əsgər. |



Sonata instrumental musiqi janrıdır.
Patetika ruh yüksəkliyidir.

**“Patetik sonata”sının I hissəsi**
*Lüdviq van Bethoven*

**T3** **Verilmiş portretlərdən “Patetik sonata”nın I hissəsinin xarakterinə uyğun olanını seçin.**



“Lənkəran qızları”
*Böyükağa Mirzəzadə*



“Abşeron bürcü”
*Səttar Bəhlulzadə*



Sevimli müəllim



Topçu Vüsal

**Dərsdə tapşırıqları yerinə yetirdikdə hansı üsullardan istifadə etdiniz?**



# DƏRS 20 MUSİQİLİ NATÜRMORT

**Musiqi ilə natürmortu necə əlaqələndirmək olar?**



Təsviri incəsənətin bir növü də natürmortdur. Natürmortda cansız təbiət və əşyalar bir yerdə, qrup halında təsvir olunur. Natürmortlarda müxtəlif əşyalar (məişət əşyaları, gül-çiçək, meyvə, musiqi alətləri, silah və s.) təsvir olunur. Belə rəsmlərdə təsvir olunan hər bir şey insanın həyat tərzindən, onun xarakteri, əhval-ruhiyyəsindən xəbər verir.

Musiqi dili də cansız təbiətin, müxtəlif əşyaların təsvirlərini musiqi ifadə vasitələrinin, musiqili və küylü səslərin köməyi ilə əks etdirir. Bəzi musiqi əsərlərinin adında, mahnıların sözlərində də natürmortu "görmək" olur.

**1 nömrəli ekspromt**
*Musiqisi Fikrət Əmirovundur.*

**Ekspromt** pyesin bir növüdür.

**T1** **"1 nömrəli ekspromt" pyesinin xarakterinə uyğun olan natürmortu seçin.**



"Xəncərlə natürmort"
*Maqomed Dibirov*



"Saz və narlar"
*Tahir Məcidov*



"Kitabla natürmort"
*Anri Fanten-Latur*



İkihürgüclü dəvə
*Guigen Zha*



**“Qızılgül”**
*Musiqisi Hatəm Nəbioğlu, sözləri Abddulla Şaiqindir.*

**T2** **“Qızılgül” mahnısının işarələnmiş hissəsini kanon şəklində oxuyun.**

## “Qızılgül”

Qızıl güləm, qızıl gül,
Məni sevər hər könül.
Yaşıldır incə belim,
Qızıldandır hər telim.

Səhər erkən açaram,
Gözəl qoxu saçaram.
Ətrim tutar hər yanı,
Mənim kimi gül hanı?

Mən əllərdə gəzərəm,
Süfrələri bəzərəm.
Mənəm gözəl qızıl gül,
Sən ey qönçəm, açıl, gül



“Qızılgül”
*Qurbanova Fatimə*

| *1-ci səs* | *2-ci səs* |
|---|---|
| Qızıl güləm, qızıl gül, | |
| Məni sevər hər könül. | |
| Yaşıldır incə belim, | Qızıl güləm, qızıl gül, |
| Qızıldandır hər telim. | Məni sevər hər könül. |
| Yaşıldır incə belim, | Yaşıldır incə belim, |
| Qızıldandır hər telim. | Qızıldandır hər telim. |
| | Yaşıldır incə belim, |
| | Qızıldandır hər telim. |

***Son üçün:***

Qızıl güləm, qızıl gül.



**Dərsdəki əhvali-ruhiyyənizə görə güldana hansı qızılgülü qoyardınız?**

**DƏRS 21**

# MUSİQİDƏ TƏBİƏT LÖVHƏLƏRİ

**Təbiəti təsvir edən musiqini rəsmlə necə əlaqələndirmək olar?**

Ən qədim zamanlardan təbiət rəssam, yazıçı və bəstəkarlar üçün ilham mənbəyi olmuşdur. İncəsənətin bütün növlərində təbiət təsvirinin heç vaxt sadə surəti olmamışdır. İncəsənət əsərlərində təbiət sanki canlanır. Təbiət lövhələri insanın onu gördüyü kimi olur: kədərli və ya şən, düşüncəli və ya əzəmətli.



Portret və natürmort kimi təbiət də musiqi əsərlərində musiqi ifadə vasitələrinin köməyi ilə əks edilir. Bəzi musiqi əsərlərində təbii və ya təqlid olunan quşların nəğməsi, çayın şırıltısı, tufan səsi, dənizin dalğalanmasını da eşitmək olur.

**"Şən Azərbaycan"**
*Musiqisi Polad Bülbüloğlunun, sözləri Məstan Günərindir.*



"Zəngilanın üzüm bağları"
*Nadir Əbdürrəhmanov*



"Qudyalçay dərəsi"
*Səttar Bəhlulzadə*

## “Şən Azərbaycan”

### *I bənd*

Qoy mən yenə söhbət açım ilk baharımdan,
Nəğməm ilə bir də keçim öz diyarımdan,
Qoy mən yenə söhbət açım ilk baharımdan,
Nəğməm ilə bir də keçim öz diyarımdan!

### *Nəqərat:*

Bol bəhrəli Muğan düzü,
Mil düzü, Şirvan düzü
Gəl, gəl deyir şən Azərbaycan!
Tər gülləri şəfalıdır,
Göygöl nə səfalıdır,
Hər yanı gülşən Azərbaycan!



### *II bənd*

El qızları düzüm-düzüm Kür qırağında,
Min gül açıb Gəncəmizin hər budağında.
Dost elləri Qarabağın dağ vüqarlıdır,
Gen çölləri bu torpağın xoş baharlıdır!

### *Nəqərat.*



### *III bənd*

Hər damlası laylay çalan göy Xəzərim var.
Hər ulduzu nəğməm olan min şəhərim var.
Keçdim yenə çiçək-çiçək hər mahalımdan,
Öz yurdunun doymaz ürək yüz vüsalından!

### *Nəqərat.*

### *Son üçün:*

Hər yanı gülşən Azərbaycan!

**T1** **Məzmun və xarakterinə görə “Zəngilanın üzüm bağları” və “Qudyalçay dərəsi” şəkillərini “Şən Azərbaycan” mahnısı ilə müqayisə edin.**

**T2** **“Şən Azərbaycan” mahnısını oxuyaraq dirijorluq edin.**

Dirijorluq sxemi



**2 nömrəli konsertindən ("Yay") "Tufan".**
*Musiqisi Antonio Vivaldinindir.*

**T 3** **"Tufan" musiqi nümunəsində istifadə olunan musiqi alətlərinin adını cədvəldə qeyd edin.**

| | |
|---|---|
| Azərbaycan musiqi aləti | |
| Avropa musiqi aləti | |



**T 4** **İş vərəqində verilən şəkli "Tufan" musiqi nümunəsinin xarakterinə uyğun rəngləyin.**



**Dərsdə yaranan suallara cavab ala bildinizmi?**



DƏRS 22

# SƏRGİDƏ

**Musiqi və rəsmlərin uyğunluğunu necə müəyyən etmək olar?**



Müxtəlif obrazları, həyat hadisələrini, füsunkar təbiət lövhələrini əks edən rəsm əsərlərindən müxtəlif sərgilər təşkil olunur. Sərgilərdə bələdçilər tamaşaçıları natürmort, portret və mənzərənin məzmunu ilə tanış edir. Bəzən sərgilərdə nümayiş olunan təsviri incəsənət əsərlərinə uyğun musiqi əsərləri də səsləndirilir. Həmin musiqi əsərləri sərgidən alınan təəssüratları daha da zənginləşdirir.

**"İgidlər"**
*Azərbaycan xalq rəqsi*

**T1** **"İgidlər" rəqsinin məzmun və xarakterinə uyğun adları verilmiş şəkil seçin.**

- "Zəngilanın üzüm bağları" — *Nadir Əbdürrəhmanov*
- "Lənkəran qızları" — *Böyükağa Mirzəzadə*
- "Abşeron bürcü" — *Səttar Bəhlulzadə*
- "Qudyalçay dərəsi" — *Səttar Bəhlulzadə*
- "Xəncərlə natürmort" — *Maqomed Dibirov*
- "Kitabla natürmort" — *Anri Fanten-Latur*
- İkihürgüclü dəvə — *Guigen Zha*
- "Saz və narlar" — *Tahir Məcidov*



**“Şəkillər haqqında mahnı”**
*Musiqisi Qriqori Qladkov-Yuginin, sözləri Aleksandr Kuşnerindir.*

## “Şəkillər haqqında mahnı”

### I bənd

Görsən əgər sən şəkildə,
Çəkilib çay dərədə,
Ya küknar bəyaz örtükdə,
Ya bulud bağ üstündə,
Ya geniş qarlı düzənlik,
Ya tarla və daxma var.
Bu şəkillərə deyərdik:
Bu ki mənzərə, dostlar.

### II bənd

Görsən əgər sən şəkildə,
Fincan masa üstündə,
Ya şirə böyük qrafində,
Ya güllər büllur vazda,
Ya bürünc qab çəkilibdir,
Ya armud və yaxud tort
Bu şəkillərə deyərdik:
Bu ki dostlar, natürmort.

### III bənd

Görsən əgər sən şəkildən,
Baxır bizlərdən biri,
Ya padşah qədim geyimdə,
Ya fəhlədir fikirli,
Ya pilot və ya rəqqasdır,
Ya qonşu saçında lent,
Bu şəkillərə deyərdik:
Bu ki, dostlarım, portret.

**T2** **“Şəkillər haqqında mahnı”nı oxuyaraq dirijorluq edin.**



**Dirijorluq sxemi**








**Cümləni necə tamamlayardınız?**
**“İndi mən bilirəm ki,...?**

# VII BÖLMƏ

## KONSERT ZALINDA


23 “Canım mənim, məmləkətim!”

24 Afişa

25 Konsertə hazırlıq

26 Konsert zalında





Konsert zalı, opera teatrı və filarmoniya hər bir şəhərin mədəni həyatının ayrılmaz hissəsidir. Belə yerlərdə musiqi konsertləri, festivallar və digər mühüm tədbirlər keçirilir. Konsert zallarında insanlar səslənən musiqidən həzz alırlar, onlarda müsbət enerji və xoş emosiyalar yaranır.

DƏRS 23

# "CANIM MƏNİM, MƏMLƏKƏTİM!"

**Konsertdə çıxış edən kollektivlər ifaçılıq səviyyələrini necə göstərə bilər?**



Adətən, bayram, tarixi günlər, yaradıcılıq gecələri və başqa tədbirlərdə konsertlər təşkil olunur. Musiqi kollektivləri öz bədii nailiyyyətləri, ifaçılıq səviyyələrini göstərməklə özlərinin birliyini, nizam-intizamını, ifaçılıq qabiliyyətlərini nümayiş etdirir. Konsert eyni və müxtəlif xarakterli bir və ya bir neçə incəsənət növlərinə aid konsert nömrələrindən ibarət ola bilər.

Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunmuş konsertlərdə Azərbaycan Respublikasının Dövlət Himni səslənir. Konsertdə daha çox vətənpərvərlik mövzusunda əsərlər səslənir.



**"Azərbaycan"**
*Musiqisi Hüseyn Abdullayevin, sözləri İsmayıl Dadaşovundur.*

**"Azərbaycan"**

***I bənd***

Bu dünyanın bir adı var
Canım mənim, məmləkətim!
Günəş kimi daim yanar
Odlar yurdu, məhəbbətim!

Qoy ucalsın zirvələrə
O yenilməz bayrağımız!
Qayıdacaq bir gün yenə
Hər bir qarış torpağımız.

***Nəqarət:***

Hər bir elin öz yeri var,
Mənim elim doğma diyar.
Gözəllikdə o bir bahar,
Gələcəyə işıq saçar.

Qurban olum, Azərbaycan,
Bu müqəddəs torpağına!
Baxıb igid övladına
Qoy sevinsin hər bir Ana!

***II bənd***

Öz sözü var, hörməti var
Ölkələrin arasında.
Belə gözəl, belə zəngin var
Dünyanın harasında?!

Vətənimin məğrur gücü,
Öz ürəyi, ilhamı var.
Xoş günlərə gedən yolda
Bir əbədi bayramı var.

***Nəqarət.***

**T1** **“Azərbaycan” mahnısını oxuyarkən xorla ifa qaydalarına riayət edin.**

**“Yallı”**
*Azərbaycan xalq rəqsi*

**Türk yallısı**

**T2** **Verilmiş sözlərdən istifadə etməklə cədvəli doldurun.**

**Rəqsin xarakteri:** *təntənəli, fikirli, gümrah, zarafatyana*
**Müşayiət:** *alçalma, çırtma çalma, nəfəs alətləri, zərb alətləri*
**Ansamblın növü:** *solo, duet, trio, kollektiv*

| Rəqsin adı | Rəqsin xarakteri | Müşayiət | Ansamblın növü |
|---|---|---|---|
| “Yallı” Azərbaycan xalq rəqsi | | | |
| Türk yallısı | | | |

**T3** **İş vərəqlərinə əsasən vokal və rəqs kollektivləri haqqında təqdimat edin.**

***Vokal kollektivi***
- Vokal kollektivlərinin yazılı təsvirini verin.
- Nümunələr gətirin.
- Suala cavab verin: vokal kollektivinin ifaçılıq səviyyəsi nə deməkdir?

***Rəqs kollektivi***
- Rəqs kollektivlərinin yazılı təsvirini verin.
- Nümunələr gətirin.
- Suala cavab verin: rəqs kollektivinin ifaçılıq səviyyəsi nə deməkdir?

**Dərsdəki hansı fəaliyyətinizə görə özünüzü tərifləyərdiniz?**



# DƏRS 24 AFİŞA

**“Canım mənim, məmləkətim!” adlı konserti necə təşkil etmək olar?**



Hər hansı bir konsert müəyyən olunmuş proqram əsasında keçirilir. Proqram konsertdə ifa olunacaq nömrələrin siyahısıdır. Konsertin maraqlı və təsirli olması üçün proqrama müxtəlif xarakterli, janr və formalı konsert nömrələri daxil edilir. Proqram tərtib olunarkən müzakirə olunur, nəticədə ifa ediləcək konsert nömrələri müəyyənləşdirilir.

Konsert haqqında məlumatı əldə etmək üçün afişa ilə tanış olmaq kifayətdir. Afişada konsertin adı (mövzusu), keçirilmə tarixi, saatı və konsertin keçiriləcək məkanı göstərilir.

**“Azərbaycan”**
*Musiqisi Hüseyn Abdullayevin, sözləri İsmayıl Dadaşovundur.*

**T1 Mahnını oxuyarkən nəqaratı işarələnmiş hecalara uyğun zərb musiqi alətlərində müşayiət edin.**

**“Azərbaycan”**

*Nəqarat:*

Hər bir elin öz yeri var,
Mənim elim doğma diyar.
Gözəllikdə o bir bahar,
Gələcəyə işıq saçar.



Qurban olum Azərbaycan,
Bu müqəddəs torpağına!
Baxıb igid övladına
Qoy sevinsin hər bir Ana!





Qurban olum Azərbaycan,
Bu müqəddəs torpağına!
Baxıb igid övladına,
Qoy sevinsin hər bir Ana!

**Afişa**




**T2** **“Çiçəklən, doğma Azərbaycan!” konsert afişası üçün il boyu keçilənlərdən 6 musiqi nümunəsini seçib cədvəli doldurun.**

| № | Musiqi nümunəsinin adı | Musiqi nümunəsinin janrı | Musiqi nümunəsinin xarakteri | Seçimin əsaslandırılması |
|---|---|---|---|---|
| 1 | | mahnı | | |
| 2 | | mahnı | | |
| 3 | | rəqs | | |
| 4 | | rəqs | | |
| 5 | | (istənilən) | | |
| 6 | | (istənilən) | | |



**“Canım mənim, məmləkətim!” konsertinə hansı incəsənət nümunələrini daxil edərdiniz?**

DƏRS 25

# KONSERTƏ HAZIRLIQ

**Konsertə hazır olmaq nə deməkdir?**

Konsertə hazırlaşarkən bir neçə məşq (repetisiyalar) təşkil olunur. Ən sonda yekun məşq keçirilir. Həmin məşqi tamaşaçısız konsert hesab etmək olar. Burada böyük bir kollektivin konsertə hazırlıq işinin nəticəsi yoxlanılır. Konsertin keçirilmə tarixi bəlli olduğundan sonuncu repetisiyanı bir neçə gün əvvəl keçirirlər.



Məşqin gedişatında müəyyən təşkilati işlər görülür:

1. Proqrama daxil edilmiş hər bir bədii konsert nömrəsinin səhnədə göstərilməsi
2. Hər br iştirakçı, ansambl və kollektivlə ayrı-ayrılıqda məşqin keçirilməsi
3. Rəqs və vokal musiqi əsərlərinin quruluşunun dəqiqləşdirilməsi və s.

***"Repetisiya" oyununun qaydaları:***

Altı qrupa bölünün. Hər qrupun bir üzvü növbə ilə masaya yaxınlaşıb qiymətləndirmə cədvəlini və afişada qeyd olunmuş musiqi nümunələrinin (konsert nömrələrinin) nömadları yazılmış kartlardan birini götürüb, onları qrupuna təqdim etsin. Növbə ilə qrup şəklində kartdakı musiqi nümunəsini ifa edin. Digər qrupların çıxışını isə cədvələ görə qiymətləndirin.

| Qrupun nörəsi | Konsert nömrəsinin adı | Xarakterinə uyğun p və f nüansları ilə ifa ("+" və ya "-") | Temp və ritminə uyğun müşayiət ("+" və ya "-") |
|---|---|---|---|
| 1 | | | |
| 2 | | | |
| 3 | | | |
| 4 | | | |
| 5 | | | |
| 6 | | | |




Dərsdəki hansı fəaliyyətinizə görə özünüzü tərifləyərdiniz?

DƏRS 26

# BAYRAM KONSERTİ

Konsertin əhvali-ruhiyyəsini tamaşaçılara necə ötürmək olar?



T1 Afişada verilmiş birinci mahnını oxuyarkən zərb musiqi alətlərində ritmik müşayiət edin.

T2 Afişada verilmiş birinci rəqsi xarakterinə uyğun ifa edin.

T3 Afişada verilmiş ikinci mahnını oxuyarkən metallofonda ritmik müşayiət edin.

T4 Afişada verilmiş ikinci rəqsi xarakterinə uyğun ifa edin.

T5 Afişada verilmiş üçüncü mahnını oxuyarkən əl çalmaqla ritmik müşayiət edin.

T6 Afişada verilmiş üçüncü rəqsi xarakterinə uyğun ifa edin.




Bugünkü konsertdə siz hansı hissləri keçirdiniz?

## “Musiqili hədiyyə” oyununun qaydaları:

Oyunda qutudakı hədiyyəni qazanmaq üçün damadakı tapşırıqları yerinə yetirin. Bir tapşırıq “5” balla qiymətləndirilir. Hər bir musiqi ifadə vasitəsinin verilən sualını düzgün cavablandıran şagird qutudakı hədiyyənin (“10” bal) sahibi olacaqdır.



“Şəngülüm, Şüngülüm, Məngülüm” musiqili tamaşasının məzmununa uyğun atalar sözü deyin.



“Yaşa, mənim xalqım” mahnısını “Dəmir yumruq” abidəsinin yaratdığı hisslərə uyğun oxuyun.






- asta
- orta
- tez

“Xoş gəlmisən, Novruzum” mahnısı hansı tempdədir?

“İgid əsgər, möhkəm dayan” mahnısını tempinə uyğun oxuyun.

“Hər alətin öz səsi var” mahnısını f və p çalarlar ilə oxuyun.




“Bəxtiyar” kinofilmində “Dostluq mahnısı” hansı dinamik çalarlarla ifa olunur?



“Balaca dirijor” mahnısında hansı yuxarı registrli musiqi alətlərinin adları çəkilir?





Baraban musiqi alətinin səslənməsi hansı registrə aiddir?



“Türksayağı rondo” əsərini barabanda müşayiət edin.



Vivaldinin “Tufan” musiqi nümunəsi hansı musiqi alətlərinin ifasında səslənir: Avropa, yoxsa Azərbaycan?

Sxemə uyğun olaraq “Şən Azərbaycan” mahnısına dirijorluq edin.









“Dostluq mahnısı” ölçüsünə görə hansı janrı xatırladır?

Misrası “Hər damlası laylay çalan göy Xəzərim var” olan mahnı hansı ladda yazılıb?



Bethovenin “Patetik sonata”sının ladına uyğun maskanı seçin.



“İgidlər” Azərbaycan xalq rəqsi ritminə görə hansı rəqslərə bənzəyir?





“Dilarə” mahnısını oxuyun və ritminə uyğun əl çalın.



## ÖYRƏNDİKLƏRİMİZ

- Musiqi ifadə vasitələri
- Azərbaycan və Avropa musiqi alətləri
- Dirijorluq sxemləri
- Sadə musiqi alətləri
- Dinləmə və mahnı oxuma qaydaları
- Musiqi kollektivləri
- Bir və iki səsli melodiyalar
- Musiqinin xarakteri
- Xalq musiqisi və professional musiqi
- Musiqi intervalları
- Notların adı
- Not və pauzaların uzunluğu
- Rəqs etmək və musiqi alətlərində çalmaq

- Musiqi formaları
- Musiqi janrları
- Musiqi obrazı
- Musiqili oyunlar



# DİPLOM

**VERİLİR**

-------------------------

Musiqi aləminə səyahətin ilk mərhələsini
müvəffəqiyyətlə keçdiyinizə görə

Siz dörd il ərzində musiqi aləminin öyrənilməsində ilk addımlarınızı atdınız. Dərsliklər də sizə kömək oldu. Ümid edirik ki, gələcəkdə də onlar yaxın dost kimi hər zaman sizin yanınızda olacaqdır!

---------- ----------

**NEY** **SAZ**



